# Qərbi Azərbaycan məsələsinin beynəlmiləlləşməsində diasporun rolu...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

**Elə məsələlər var ki, onun həyata keçməsində dövlətlə yanaşı xalqımız da əmək sərf etməlidir. Milli məsələlərdə heç kəs kənarda qala bilməz və hər kəsin bura qatqısının olması mütləqdir. Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışı qarşımızda duran və həllini gözləyən bir məsələdir.**




Sonuncu dəfə 1988-ci ildə (1988-1992) öz ev-eşiklərindən didərgin salınan, deportasiya müsibəti yaşayan soydaşlarımız uzun illərdir ki, Ermənistanın haqsızlığı ilə üzləşiblər. Onlar öz evlərinə qayıtmaq üçün lazımı cəhdləri edirlər. Qərbi Azərbaycan icması soydaşlarımızı geri qayıdış prosesinə hazırlayır, eyni zamanda da bu məsələni beynəlxalq ictimaiyyətə daşıyır. Etnik təmizləmə, soyqırım, deportasiya qurbanı olan soydaşlarlarımızın problemlərinə dünya birliyi biganə qalmamalıdır. Qərbi Azərbaycan icması bu məsələ ilə əlaqədar olaraq BMT-yə, onun təsisatları olan UNESCO-ya və başqa qurumlara müraciət edərək onları prosesin həyata keçməsinə dəstək olmağa çağırıb.

**Qərbi Azərbaycana qayıdış beynəlxalq müstəvidə...**

Milli Məclisin Səhiyyə komitəsinin sədri, "Qərbi Azərbaycan İcması" Ağsaqqallar Şurasının sədri, akademik Əhliman Əmiraslanov yazır ki, Qərbi Azərbaycan İcmanın üzərinə böyük tarixi missiya düşür. " İcmanın hazırladığı Qayıdış Konsepsiyasına əsasən, bügünkü Ermənistan ərazisindən zorla deportasiya olunan azərbaycanlıların öz yurd-yuvalarına qayıtması üçün lazımi işlər görülür. Cənab Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasındakı görüşündə qarşımıza qoyduğu vəzifələrdən biri kimi həm tarixi həqiqətlərin, həm tarixi abidələrimizin, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlərin, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktları özündə əks etdirən rəqəmsal platformalar hazırlanır və həyata keçirilr. 2023 ilin martında Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. İndiki Ermənistan ərazisindən qovulmuş Azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtma hüququnun təmin edilməsi, qayıdışdan sonra onların fərdi və kollektiv hüquqlarının, o cümlədən, mülkiyyət hüquqlarının, mədəni-tarixi irsinin bərpası və qorunması məsələlərini əhatə edən Qayıdış Konsepsiyası BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, çin, ərəb və ispan), adı çəkilən əsas orqanların gündəliyinin silahlı münaqişələrin qarşısının alınması, sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndləri altında yayılıb. Qayıdış Konsepsiyasının BMT-nin əsas orqanlarının sənədləri kimi yayılması Qərbi azərbaycanlıların sülh yolu ilə öz doğma torpaqlarına qayıtması yolunda böyük uğurdur. Sülhpərvər və tamamilə beynəlxalq hüquqa uyğun olan konsepsiyanın BMT-də rəsmi sənəd kimi yayılması Ermənistan hökumətinin Qərbi Azərbaycan mövzusunu təhrif etməsi imkanlarını daha da azaldır, bu ölkəni bir növ İcma ilə danışıqlara başlamağa çağırır və bu mövzuda beynəlxalq prosesin başlanmasını təşviq edir. Onu da qeyd edim ki, İcmanın BMT sənədi kimi yayılmış ikinci sənədidir. Bundan əvvəl, yanvar ayında İcmanın beynəlxalq ictimaiyyətə müraciəti yayılmışdı. O cümlədən, Qərbi Azərbaycan İcması 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününü ilə bağlı beynəlxalq təşkilatlara bəyanat yayıb. "Qərbi Azərbaycan İcması" İctimai Birliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının müraciəti əsasında Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsində araşdırma aparılıb. Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan sənədlərə əsasən, XX əsrin əvvəlindən başlayaraq erməni əsilli şəxslərin rəhbərliyi ilə yaradılmış silahlı birləşmələr tərəfindən Qərbi Azərbaycan torpaqlarında yaşayan azərbaycan əsilli şəxslərə qarşı sülh və insanlıq əleyhinə, şəxsiyyət əleyhinə cinayətlərin törədilməsinə yönəlmiş aktiv hərəkətlərin icrasına başlanılıb...Qeyd olunan faktlarda beynəlxalq və ölkədaxili qanunvericilikdə nəzərdə tutulan cinayətlərin əlamətləri olduğuna görə həmin xüsusatlar üzrə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırım), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə)maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib..."-deyə akademik qeyd edib.

**Bu məsələdə xaricdəki Azərbaycan diasporu nə kimi rol oynaya bilər?**

Məlum olduğu kimi, Qərbi Azərbaycan məsələsi artıq beynəlxalq aləmdə səslənir və beynəlxalq qurumlar bu hadisə ilə bağlı məlumatlıdır. Dünyanın müxtəlif ölkələrində diasporla məşğul olan şəxslər, bütövlükdə Azərbaycan diasporu bu sahəyə töhfələr verməlidir. Bildirək ki, bu gün dünyada 500-dən çox Azərbaycan diaspor təşkilatı mövcuddur. Bilirik ki, dünyanın müxtəlif yerlərində məskunlaşan soydaşlarımız və həmvətənlərimiz nə qədər güclü olsa, milli maraqlarımız da bir o qədər təmin olunr, biz öz hədəflərimizə çata bilərik. Mütəxəssislərə görə, bu gün Azərbaycan diasporu milli maraqlarımız naminə bu yöndə də ciddi işlər görməlidir. Ekspertlər hesab edirlər ki, azərbaycanlıların dinc, sülh şəraitində geri dönüşünün Ermənistan hökuməti tərəfindən təmin edilməsi əsas istiqamətlərdən biridir və buna nail olmaq üçün isə diasporumuz çalışmalıdır. İndiki vəziyyətdə Zəngəzur, Göyçə, bütövlükdə Qərbi Azərbaycan məsələsinin Azərbaycan diasporunun gündəliyinə salınmasının vacibliyini qeyd edən ekspertlərin fikrincə, artıq diasporun fəaliyyət istiqamətində bu məsələ öz yerini tutmalıdır. Onlar beynəlxalq aləmin diqqətinə çatdırmalıdır ki, dəfələrlə soyqırımına və deportasiyalara məruz qalan Qərbi Azərbaycandakı yüz minlərə soydaşımız təməl insani hüquqlardan məhrum ediliblər. Onu da vurğulayaq ki, Qərbi Azərbaycan İcmasının müxtəlif xarici ölkələrdə şöbələri yaradılıb və onlar diasporla bu istiqamətdə çalışırlar. Dünyanın ayrı-ayrı yerlərində yaşayan Qərbi azərbaycanlılar da bu prosesə yaxından qoşulmalıdır və soydaşlarımızın təhlükəsiz şəraitdə, sülh içində geri qayıdışı təmin edilməlidir. Beynəlxalq aləm Ermənistan dövlətindən tələb etməlidir ki, azərbaycanlıların geri qayıdışını təmin etsin. Bu istiqamətdə Azərbaycan diasporu tədbirlər, yığıncaqlar, dinc aksiyalar keçikrməli və beynəlxcalq qurumıara davamlı müraciətlər etməlidir. Qərbi azərbaycanlıların geri qayıdışı təmin edilənə qədər biz fəaliyyətimizi davam etdirməliyik.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**